KETLİN SİRS

# MİFOLOGİYA 101

TANRILAR VƏ İLAHƏLƏRDƏN TUTMUŞ
MONSTRLARA VƏ ÖLÜMLÜLƏRƏ
QƏDƏR SİZİN QƏDİM MİFOLOGİYA
ÜZRƏ BƏLƏDÇİNİZ

Tərcüməçi:
Hikmət Carçıyev

qanun nəşriyyatı

KATHLEEN SEARS

# MYTHOLOGY 101

FROM GODS AND GODDESSES TO MONSTERS AND MORTALS, YOUR GUIDE TO ANCIENT MYTHOLOGY

Sizi eynilə Odissey kimi macəralarla dolu səyahətə çıxaran bu kitabda Troya müharibəsi, Perseyin Meduzanı öldürməsi, Epidin öncəgörmədən yayınması kimi klassik mifologiyaya əsaslanan ən maraqlı hekayələrlə tanış olacaqsınız. Ondan nəsə istəməyə gələn qonaqlarını "yaddaşsızlıq taxtı"na oturdan Aid; yatağına uyğunlaşdırmaq üçün səyyahların ayaqlarını kəsib boylarını qısaldan Prokrust; acgözü öz ətini yeməyə məhkum edən Demetra; oxuduğu nəğmələrlə dənizçilərin ağlını başından çıxarıb gəmilərinin qayalıqlara çırpılmasına səbəb olan sirenalar; soruşduğu tapmacanın cavabını bilməyən səyyahları parçalayıb yeyən sfinks bu hekayələrdə rast gələcəyiniz ən qəribə mifik qəhrəmanlardan sadəcə bir neçəsidir. Əlavə olaraq, qədim yunan və Roma mifologiyasından bəhs edən xeyli klassik dövr yazıçıları və əsərləri haqqında da məlumat alacaqsınız.

# MÜNDƏRİCAT

GİRİŞ ........ 9
ƏFSANƏNİN TƏRİFİ ........ 11
YUNAN HEKAYƏÇİLƏRİ ........ 16
ROMA MİFLƏRİNİN YARADICILARI ........ 26
XAOS, PROMETEY VƏ İNSANIN YARADILIŞI ........ 31
KAİNATIN NİZAMI: GÜNƏŞ, AY VƏ DAN ÜZÜ ........ 36
PANDORANIN QUTUSU ........ 39
GEYA (YER) VƏ PONT ........ 42
SİKLOPLAR VƏ YÜZƏLLİLƏR ........ 46
ƏDƏBİYYATDA ƏFSANƏLƏR ........ 48
KİŞİ VƏ QADIN TİTANLAR ........ 54
DİVLƏR ........ 58
TİFON ........ 61
KRON VƏ ZEVSİN DOĞULMASI ........ 65
ZEVS KRONA QARŞI: TİTANLARLA MÜHARİBƏ ........ 68
OLİMP DAĞI VƏ MİFİK QANUNLAR ........ 72
OLİMPDƏKİ ON İKİ TANRI ........ 77
ZEVS VƏ HERA ........ 85
POSEYDON ........ 90

AİD ....................................................................................................98
YERALTI ALƏMİN XƏRİTƏSİ ..................................................................102
İNCƏSƏNƏT VƏ MUSİQİDƏ MİFLƏR...................................................108
ZEVSİN SAYSIZ-HESABSIZ MACƏRALARI.........................................112
ÖLÜMDƏN QAÇIŞ: ÖLÜMLÜLƏR YERALTI ALƏMDƏ ...............119
HESTİYA ...............................................................................................124
DEMETRA .............................................................................................129
AFİNA ...................................................................................................137
ÖLÜLƏRİN HAKİMLƏRİ .......................................................................143
APOLLON .............................................................................................146
DİONİS ..................................................................................................153
ARES .....................................................................................................161
ARTEMİDA ...........................................................................................168
AFRODİTA ............................................................................................176
QATI AÇILMAMIŞ SİRR: "ELEVSİN MİSTERİYALARI"...............183
HEFEST .................................................................................................184
HERMES ...............................................................................................189
ZEVSİN ALTI ARVADI ..........................................................................196
HERANIN QƏZƏBİ...............................................................................199
İLHAM, MEŞƏ, YAXŞILIQ PƏRİLƏRİ VƏ SATİRLƏR ....................202
TRİTON, HEKATA VƏ PAN ................................................................208
İKİNCİ DƏRƏCƏLİ DİGƏR TANRILAR...............................................214
KİNEMATOQRAFİYADA VƏ KÜTLƏVİ SƏNƏT
ƏSƏRLƏRİNDƏ ƏFSANƏ.....................................................................217
SKİLLA...................................................................................................221
AMAZONLAR.........................................................................................224

MİNOTAVR........................................................................................228
XİMERA...........................................................................................232
MEDUZA .........................................................................................235
KENTAVRLAR................................................................................239
DİGƏR ƏCAİB MƏXLUQLAR: QRİFFİNLƏR, ERİNİLƏR,
HARPİYALAR VƏ LERNALI HİDRA...................................................241
SFİNKS.............................................................................................244
NECƏ QƏHRƏMAN OLMALI?...........................................................245
HERAKLIN ON İKİ TAPŞIRIĞI..........................................................247
QƏDİM QAN DAVALARI: AFİNA ARESƏ QARŞI..........................257
PERSEY...........................................................................................261
TESEY.............................................................................................265
YASON ...........................................................................................270
ODİSSEY .........................................................................................275
AXİLLES, AQAMEMNON VƏ DİGƏR NÜFUZLU
QƏHRƏMANLAR.............................................................................284
TROYA MÜHARİBƏSİNİN SƏBƏBİ..................................................289
TROYA MÜHARİBƏSİNİN QƏHRƏMANLARI .................................294
TROYANIN SÜQUTU .......................................................................298
MÜQAYİSƏLİ YUNAN VƏ ROMA MİFOLOGİYASI.......................305
ENEY: TROYALI QƏHRƏMAN.........................................................307
ROMUL, REM VƏ ROMANIN QURULMASI ...................................312
ROMA KRALLARI.............................................................................318
MÜASİR MİFOLOGİYA ...................................................................323
İNDEKS ...........................................................................................329

# GİRİŞ

Yunanların və romalıların Olimp dağındakı tanrılar və ilahələrə sitayiş etməyə başlamasından yüzlərlə il keçir. Əvvəllər haqqında eşitdiyiniz uca Zevs, qəddar Meduza və cazibədar Afrodita kimi qədim qəhrəmanlar barədə rəvayətlər e.ə. 900-cü illərədək gedib çıxan əfsanələrə əsaslanır. Bir halda ki belədir, onda bu gün bu əfsanələrdən niyə danışırıq? Səbəb sadədir: ümumiləşdirsək, klassik mifologiyanın qərbin və ətraf dünyanın tarixinə, ədəbiyyatına, həyat tərzinə təsir etdiyini görərik. Daha doğrusu, bu təsirin qədim dünyanı və bu günün dünyasını formalaşdırdığı danılmazdır. Təsir bu gün də davam edir. Məsələn, istifadə etdiyimiz dil hələ də mifologiyanın təsiri altındadır: özündənrazı klassiklər *narsist*dir; düşməninizin zəif nöqtəsi onun *Axilles dabanı*dır; *hipnoz*un yuxular aləmini təcrübədən keçirmisinizsə, dünyanı görmək üçün *Atlant*a müraciət etməlisiniz. Təqvimi formalaşdıran aylar Roma mifologiyasına əsasən adlandırılıb. Bürclər də əfsanələrlə əlaqəlidir. Homer, Sofokl, Vergili, Ovid kimi məşhur yazar və filosoflar tanrıların döyüşləri vasitəsilə insanların həyat tərzini detallı şəkildə izah ediblər. Onların yazdığı mətnlər yetərincə təsirli ədəbiyyat sayıla bilər, amma əslində, klassik mifologiyanı qismən əhatə edir.

Qədim yunanlar və romalılar insanlığın inkişafı, təbiət hadisələrinin səbəbləri, dünyanın, kainatın başlanğıcı kimi xeyli heyrətamiz hadisələri əsaslandırmaq məqsədilə əfsanələrə istinad ediblər. Onlar yüz illər boyunca ancaq dünyanın yaranışını deyil, həm də sevgi, xəyanət,

müharibə, ehtiras, qısqanclıq, sədaqət və faciələri də güclü tanrıların, nəcib qəhrəmanların və qorxunc varlıqların əhvalatları vasitəsilə çatdırıblar. Əfsanələr insanların tanrıları barədə, sadəcə, danışması ilə bitmir. Əfsanələri oxuduqca yarıinsan, yarıat kentavrları, yolunu azmış dənizçiləri ölümə səsləyən sirena, minotavr, sfinks, ximera, sikloplar kimi *özünəməxsus* qorxunc məxluqları, tarixə düşmüş ən qəribə varlıqları tanıyacaqsınız. Eyni zamanda Troya müharibəsi, Odisseyin epik səyahəti, Edipin acınacaqlı həyatı kimi ən məşhur macəra və müharibələrin arxasında gizlənmiş əhvalatlardan xəbərdar olacaqsınız. Yunan mifologiyasındakı ən məşhur tanrılardan, ilahələrdən (və onların Roma miflərindəki qarşılığından) xəbərdar olacaqsınız: müharibə aşiqi Ares, müdrik Afina, qısqanc Hera, dəlisov Aid, qəzəbli Poseydon və onların Yosan, Persey, Herakl, Tesey kimi cəsur insan qarşılıqları.

*Mifologiya 101: "Qədim yunan və Roma mifologiyasına dair bilməli olduğunuz hər şey"* qədim dünyanın ən möhtəşəm (və son dərəcə müdhiş) rəvayətlərini öyrənməkdə sizin bələdçiniz olacaq. Yunan və Roma əfsanələrini, uyğun olaraq, **Y** və **R** hərfləri ilə işarələmişik. Heç bir narahatlığa ehtiyac yoxdur. Beləcə, hər əhvalatın mənşəyini anındaca görə biləcəksiniz. Sevgi, macəra, detektiv, qorxu. Ən çox hansı janrı sevirsiniz? Seçiminiz nə olursa olsun, əfsanələrdə onunla qarşılaşacaqsınız. Tanrılar haqqında çox bilmirsinizsə, daha çox öyrənmək istəyir, ədəbiyyat və ya tarix dərslərində iştirak etməyi düşünür, bəlkə də, məktəbdə öyrəndiyiniz məlumatları yeniləmək niyyətindəsinizsə, bu əyləncəli və hərtərəfli bələdçi olan yunan və Roma mifologiyasını oxumaq sizin üçün mükəmməl mənbə olacaq.